**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## ATİB-də Asiya İnkişaf Bankının nümayəndələri ilə görüş keçirilmişdir

*Görüşdə Azərbaycanda vahid gömrük pəncərəsi sisteminin tətbiqinin mövcud vəziyyəti müzakirə edilmişdir*

**No: 09/30/109**
**11.06.2009**

10 iyun 2009-cu ildə Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində ATİB İdarə Heyəti sədrinin müavini Cemal Yangın və ATİB Baş katibi Rəşad Rəsullu Asiya İnkişaf Bankının məsləhətçiləri, "CrimsonLogic" şirkətinin nümayəndələri Çan Fuk Senq və Tesvin Çun ilə görüşüblər. Görüşdə məqsəd 1 yanvar 2009-cu ildən etibarən Azərbaycanda tətbiq edilməyə başlanan vahid gömrük pəncərəsi sisteminin ilkin nəticələri və təkmilləşdirilməsi istiqamətləri barəsində müzakirələr aparmaq olmuşdur.

Görüşün əvvəlində Çan Fuk Senq bildirmişdir ki, Sinqapur hökuməti tərəfindən 1988-ci ildə yaradılan "CrimsonLogic" şirkəti hazırda bu ölkənin elektron ticarət və gömrük sisteminin idarə edilməsini həyata keçirir: "Bizim Azərbaycana səfərimizin məqsədi vahid gömrük pəncərəsinin tətbiqi sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsi və bunun əsasında həm Azərbaycan, həm də digər Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üçün tövsiyələrin hazırlanmasından ibarətdir".

Cemal Yangın bildirmişdir ki, bu sistemin tətbiqi həm bürokratiyanın aradan qaldırılmasında, həm də işlərin sürətlə aparılmasında mühüm rol oynamışdır: "Bu sistem tətbiq edilməmişdən öncə bir yük maşınındakı malların gömrük rəsmiləşdirilməsi 4 gün vaxt aparırdısa hazırda bunun üçün 3 saat tələb edilir. Bundan əlavə, daha əvvəl gömrük rəsmiləşdirilməsi üçün çoxsaylı sənədlər tələb edilirdi və onların həcmi 40 səhifəyə qədər olurdu. Hazırda isə yalnız 2 səhifəlik bir sənəd tələb edilir".

Daha sonra tərəflər vahid gömrük pəncərəsi sisteminin daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparmışlar.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**